

جمعه ۲۸ ربیع الآخر سنه ۱۳۳۷ ایکنجی سنه دوامیه‌سی ۳۱ کانون‌ثانی ۱۹۱۹ سنه نومرو ۱۰۲

# آذربایجان

گونده‌لک سیاسی، اجتماعی، ادبی، اقتصادی تورک غزته‌سیدر.

تورک و اسلاملغه مفید مقاله‌لره صحیفه لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقالاتك مکافاتنی اداره تعیین ایدیور.

اعلان قیاتی: سطری ۳ روبله کراتله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:
باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ « ۳۲ »
۳ « ۴۵ »

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ « ۳۵ »
۳ « ۵۰ »

محل اداره:
باکو، وورواسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۴ نومرولی ابوده
«آذربایجان» اداره‌سی،
تلفون نمره ۶۰-۳۹

تك نسخه‌سی ۷۰ قپك

**مسلمان خانمی**
فرانسیزجه، آلمانجه موسیقی و غیری درسلر ویریور. سوراخانسقی کوچه‌ده ایو نمرو ۱۷۶ رجبوفك ۲ نمرولو منزلینده.
2665

**گیدورم**
بویاقین گونلرده ومکتوب ایله باشقه وثیقه و ایش کاغذلرینی یرینه یتورمك ایچون قبول ایدیورم: اودیسایه، کییفه، لهستانه، بالطیق دریاسی‌جوارینه موسقوایه، پتراغرده. مراجعت ایچون: آرمیان-سقایا سوقاقده ۴۵ نومره‌لی ایوده ۱نجی منزلده تلفون ۵۱-۳۳
2668

**دوقتور علی‌حیدر اللّه‌ویردی‌اوف**
داخلی ناخوشلاری قبول ایدیر؛
سحر ساعت ۸ دن ۱۰ دك
آخشام ساعت ٤ دن ٦یه دك
ایچری شهرده مالی‌قرپوستنوی کوچه‌ده ۸نمرولو ایوده تلفون نمروسی ۹۱-۳۶
Малая-Крѣпостная ул. д. № 8.
Телефонъ № 36-91

انا للّه و انا الیه راجعون
حاجی غنی حسین اوف کمال یاس و تحسرایله اوز سوگیلی قرداشی
**حاجی خالق حسین اوفك**
مقتول اولدوغنی اوز قوم اقربا و دوست آشنالرینه خبر ویرور.
جنازه بو گون یانوار آینك ۳۱نده ساعت ۹ده مرحومك تسیرقوونی کوچه‌ده ۶۵ نومرولی ایویندن قاسم‌بك مسجدینه آپاریلاجاقدر.
2667

## آذربایجان مجلس مبعوثاننده

(کچن نومرونك مابعدی)

**سلطان مجید غنی زاده** — (اتحاد)

**محمد امین رسول زاده** — (مساوات)

**عبداللّه بك** ...

**سلطان مجید غنی زاده** — ...

**رستم بکلی شفیع بك** — ...

موقت اولماقله برابر بو پارلمان مملکتك الڭ صلاحیتدار بر مؤسسه‌سی‌در؛ اوکا گوره‌در که بز پارلمان قانونی تنقید ایدرکن عدالتدن یا ...

شهرده اوغورلق چوغالمش، دون، حیرت انگیز برجنایته شاهد اولدق. جانیلق یواش یواش آرتماغه باشلادی. پولیس وظیفه‌سی ایله متناسب بر درجه‌ده دکلدر.

دیمك ایسته یورز که پولیس اداره‌سنده بر ...

م. ا.

## جدیت گرك!

هر بر حکومت، بالخاصه یکی بنا دوتمق اوزره اولان حکومتلر ایچون هر شیدن اول حیات و فعالیت اثری گوسترەجك بر میدان واردر.

*“Azərbaycan” qəzetinin 102-ci nömrəsinin 1-ci səhifəsi*

Cümə, 31 yanvar 1919-cu il, nömrə 102

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 28 rəbiülaxir sənə 1337. 31 kanuni-sani sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

**İNNA LİLLAHİ VƏ İNNA İLAHİ RACİUN**

Hacı Qəni Hüseynov kamali-yə's və təhəssürlə [böyük bir matəm və kədərlə] öz sevgili qardaşı **Hacı Xaliq Hüseynovun** məqtul olduğunu öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir. Cənazə bu gün yanvar ayının 31-ində saat 9-da mərhumun Tserkovnı küçədə 65 nömrəli evindən Qasım bəy məscidinə aparılacaqdır.

*2667*

**Müsəlman xanımı**

Fransızca, almanca, musiqi və qeyri dərslər verir. Suraxanski küçədə ev nömrə 176. Rəcəbovun 2 nömrəli mənzilində.

*2665*

**Gedirəm**

Bu yaxın günlərdə və məktub ilə başqa vəsiqə və iş kağızlarını yerinə yetirmək üçün qəbul edirəm: Odessaya, Kiyevə, Lehistana [Polşaya], Baltik dəryası civarına, Moskvaya, Petroqrada. Müraciət üçün: Armyanskaya soqaqda [küçədə] 45 nömrəli evdə 1-inci mənzildə. Telefon: 33-51.

*2668*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir: səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

## CİDDİYYƏT GƏRƏK!

Hər bir hökumət, bilxassə yeni bina tutmaq üzrə olan hökumətlər üçün hər şeydən əvvəl həyat və fəaliyyət əsəri göstərəcək bir meydan vardır – asayiş və əmniyyət meydanı.

Hüquqi-milliyyə, ixtiyariyyati-ammə – bunlar mənəviyyatdır. Bu mənəviyyat hər yanda olduğu kimi, bizdə də camaatdan yalnız bir qisminin, idraklı bir qisminin ruhunu, zehnini işğal edə bilər. Əhalidən fədakar bir qismi keçirdiyimiz müşkülatın bir haldan digər hala keçmək zamanına aid müvəqqəti bir hal olduğunu dərk ilə, o qədər narazılıq göstərmədən, hər növ məşəqqətlərə təhəmmül edə bilər. Fəqət xalqın əksəriyyəti, təbiidir ki, bu halda olammaz.

Xalqı hər şeydən əvvəl hökuməti, onun hərəkətləri, fəaliyyətləri ilə tanıya bilər. Bu hərəkətlər arasında asayiş ilə əmniyyət birinci dərəcədə mühümdür. Xalqı əmniyyət və asayiş etibarilə razı salan bir hökumət, heç şübhəsiz ki, yarı-yarıya bəqasını təmin eyləmiş deməkdir.

Hökumətimiz Məclisi-Məbusan kürsüsündən irad eylədiyi bəyannaməsində bu nöqtəni eyi dərk eylədiyini izhar eylə-

mişdi. Fəqət burada biz qeyd etmək məcburiyyətindəyiz ki, bu xüsusda hökumət lüzumu dərəcədə əsəri-fəaliyyət göstərməmişdir.

Dəmiryollarında hadis olan [baş verən] vəq’ələrin təkrar vücuda gəlməməsi üçün hökumət tədbirlər görür. Biz bu tədbirlərin bir an əvvəl səmərədar olmasını istəriz. Fəqət bununla bərabər şəhərimizin dəxi əmniyyət və asayişinə baxmalıdır. Biliriz ki, şəhərimizdə bir çox fasid ünsürlər var. Bu ünsürlər bizə xaricdən gətirilmiş, istəmədiyimiz halda bizimlə həmşəhrilik haqqını qazanmışlardır. Hökumət başqa bir vəziyyətdə, başqa bir imkanda olsaydı, onsuz da bikarı [işsiz-gücsüzü] çox olan bir şəhəri yeni-yeni bikar dəstələri ilə doldurmazdı. Fəqət bu kimi səbəblər hökuməti, təbiidir ki, daha ciddi tədbirlər görməyə vadar etməlidir.

Şəhərdə oğurluq çoxalmış. Dün heyrətəngiz bir cinayətə şahid olduq. Canilik yavaş-yavaş artmağa başladı. Polis, vəzifəsi ilə mütənasib bir dərəcədə deyildir.

Demək istəyiriz ki, polis idarəsində bir növ zə’fi-idarə [idarə zəifliyi] görülməkdədir. Bu zə’fin bir səbəbi şəhərdə olan bir çox nadinc ünsürlərin vücudu isə də, digər cəhətdən polis nəfəratının, milislərin kimlərdən ibarət olduğuna dəxi diqqət və etina edilməlidir.

Polisin başında Azərbaycan mənafeyi ilə mə’nən əlaqədar adamlar olmalı, əxlaqı düzgün məmurlar bulundurulmalıdır. Bununla bərabər, hökumət məqamati-aliyyəsi əli altındakı məmurların üstündə daimi gözətçi olduğunu asarı [işi] ilə göstərməlidir. Xalqın əmniyyət və asayişi kəndilərinə tapşırılmış olan adamlar hər saat və hər dəqiqədə öhdələrinə götürdükləri məsuliyyəti xatırlamalıdırlar. Onları sorğu və suala çəkəcək qüvvəti daima başları üstündə görməlidirlər.

Bununla bərabər, bir şeyə də hökumətin nəzəri-diqqətini cəlb etmək istəyiriz. Polis zabitəsinin aldığı məvacib kəndisindən tələb olunan vəzifə ilə mütənasib deyildir. Adi bir əmələnin 1000 manatdan ziyadə məvacib aldığı bir şəhərdə 700 manat məvacib alan bir məhəllə pristavından vəzifəşünaslıq tələb etmək pək də məntiqə gəlir bir şey deyildir.

Hökumət hər şeydə qənaət edirsə etsin, fəqət məmləkətin əmniyyət və asayişinə aid xüsuslarda xəsislik göstərməsin. Çünki bu xissət, qüvvəti-layəmutundan qənaət edən adamın halıdır ki, vaxtilə ət və əkməyə əsirgədiyini sonra tə-bib ilə dərmana vermək məcburiyyətində qalar.

Biz Daxiliyyə Nəzarətindən ciddi tədbirlər, kəskin hərəkətlər, tərəddüdsüz əzmlər istəriz. Bunu bütün məmləkət, bütün əhali istəyir. Bu xüsusda adam lazımsa adam, para lazımsa para vermək millətin borcudur. Bu borcunu millət əsirgəməz! Əzm və fəaliyyət istəriz. Hümmətimiz artsın, ciddiyyətimiz çoxalsın!..

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrənin mabə’di)*

**Sultanməcid Qənizadə** (İttihad) - Əfəndiyev cənablarının nitqinin son qisminə iştirak edərək deyir ki:

Əlbəttə Parlaman qəsdən ədalətsizlik buraxa bilməz, lakin bununla belə səhv həmişə mümkündür. Ona görə mən təklif edərdim, Parlaman Şəki qəzasına yer versin. Əlavə Bakı qəzasının Parlamanda əsla nümayəndəliyi yoxdur. Hərçənd, natiqlərdən birisi deyir ki, biz ümum əhali və ümum qəzaları təmsil ediriz. Amma qəzaların Parlamana nümayəndə seçmələrinin də böyük əhəmiyyəti var.

**Məhəmməd Əmin Rəsulzadə** (Müsavat) - Mən bir Parlaman üzvü və Parlamanı təşkil edən sabiq Milli Şura sədri sifətilə Etibarnamə komisyonunun nöqteyi-nəzərinin doğru olduğu barəsində bir qədər izahat verməliyəm. Deyirlər Bakı qəzasında 70 min nüfus [əhali] var. Əgər Bakı qrodonaçalstvası çıxılsa, Bakı qəzasında 15 mindən ziyadə nüfus yoxdur. Məbusluq haqqını 58 min səs götürdükdə, əlbəttə ki, 15 min nüfusa yer verilmədikdə böyük xəta işlənməmiş olur. Digər tərəfdən Bakı həmişə qəza ilə çox yaxın əlaqədədir. Binaənileyh, Bakı Milli Komitəsi qəzanı da təmsil edə bilər. Bilxassə ki, diqqət edilərsə görülər ki, burada əyləşən məbusların bir çoxu o köydən, bu köydəndir. Məsələn, hazırkı məbsulardan birisi Məşqətli, digəri Şağanlı, o birisi Novxan[ı]lıdır. Bu nöqteyi-nəzərdən qəza, nümayəndəsiz deyildir. Əlbəttə, mən demirəm Parlamanın qanunu nöqsansızdır. Bu qanunu verənlər mütləq sərih qanun verdiklərini iddia etməyirlər. Parlaman ümumi seçki əsası ilə seçilməmişdir; onun bir çox nöqsanı ola bilər. Ancaq nəzərə almalıdır ki, bu Parlaman əsl Məclisi-Məbusan olmayıb, onun bədəli və müvəqqət bir müəssisəsidir. Fəqət, Məclisi-Müəssisan dəvətinədək müvəqqət olmaqla bərabər, bu Parlaman məmləkətin ən səlahiyyətdar bir müəssisəsidir. Ona görədir ki, biz Parlaman qanununu tənqid edərkən ədalətdən ya ədalətsizlikdən deyil, bu nöqteyinəzərdən baxmalıdır ki, qaldırılan məsələ məqsədə müvafiqmidir, deyilmidir.

Bu gün Parlaman məsələsi yalnız Bakı ya Şəki qəzası ilə həll olunsaydı, bəlkə də müvafiq görülərdi. Fəqət, bizə məlumdur ki, Gəncə qəzası da naməmnundur. Ağdaş dəxi nümayəndəliyinin artırılmasını tələb edir. Bu gün biz Bakı, ya Şəki qəzasının istədiyinə əməl edərsək, əlbəttə sairlərinin də tələbini qəbula məcbur olarız. Heç kəsə demək olmaz ki, Bakının, Şəkinin tələbinə əməl ediriz, sizinkinə yox. Əgər desəniz ki, bu iki qəza müstəsna tutulsun, o vaxt sair qəzalar da tələb edərlər. Deyə bilməzsiniz ki, Bakıya, Şəkiyə istisna olar amma sizə ola bilməz. Bu surətlə hamının tələbinə əməl etmək lazım gələr. O halda qanun həftədən-həftəyə dəyişərək qanunluqdan çıxar, Məclisi-Məbusan da bir mitinq şəkli alar. Buna görədir ki, biz Məclisi-Məbusanın kökünü laxlatmağa heç vaxt razı olmamalıyız. Bəlkə Şəki haqqında ədalətsizlik olmuşdur da, lakin bütün məmləkətə nisbətlə Şəki bir cüzdür. Cüzün mənafeyi naminə küllün mənafeyini pozmaq olmaz. Həmişə cüz küllə fəda edilir. Binaənileyh, Şəki haqqında bir ədalətsizlik olmuşsa belə, bütün məmləkət xeyri üçün qanuna tabe olmalıdır ki, Parlamanın nüfuz və heysiyyəti rəxnələnməsin. (Alqış)

**Abdulla bəy** - təklif edir ki, məsələ komissiyaya verilsin, o halda sübut edər ki, Bakı ilə Şəkidən başqa heç qəza haqqında ədalətsizlik olmamışdır.

**Sultanməcid Qənizadə** - Mən zənn edirəm ki, Parlaman qanunu dəyişsə, nü-

fuzu azalmaz. Biləks [əksinə], nöqsanı düzəltməlidir.

**Rüstəmbəyli Şəfi bəy** - Etibarnamə komisyonu bu məsələni müzakirə edərkən bu ya o qəzanın haqqı nöqteyi-nəzərindən deyil, ancaq əsasi nöqteyi-nəzərindən yaxlaşmışdır. Komisyonun zənnincə məbusun miqdarını təyin edən qanunu pozmaq olmaz. Bu qanun, rəqəmləri deyil, idareyi-mülkiyyə vahidlərini nəzərə almışdır. İştə bu nöqteyi-nəzərdəndir ki, etibarnamə komisyonu qəza ya cəmiyyətlərin qərarını rədd edir.

Sədr məsələni iki qismə ayırır. Əvvəla ukraynalılara yer vermək məsələsini səsə qoyur. Əksəriyyəti-ara [səs çoxluğu] ilə bir yer verilməsi qəbul olunur. İkinci, Parlaman məbuslarının miqdarını artırmaq məsələsini səsə qoyur. İttifaqi-ara ilə [yekdilliklə] təklif rədd olunur.

*(axırı var)*

**Ermənilər Azərbaycan Hökumət və Parlamanında**

Bakı Erməni Milli Komitəsi Rəisi-vükəla həzrətlərinə bir məktub yazaraq, ermənilərin Azərbaycan Hökumət və Parlamanına daxil olmaq istədiklərini bildirmişdir.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

**Almaniyada Məclisi-Müəssisan seçkiləri**

Almaniyada Məclisi-Müəssisan seçkiləri nəticəsində 165 nəfər sosial-demokrat, 91 mərkəzi firqə, 75 demokrat, 38 mühafizəkar, 22 milli hürriyyətpərvər və 8 nəfər başqa firqə nümayəndələri intixab edilmişlərdir. Veymarda olan milli teatro binası Məclisi-Müəssisan üçün hazırlanır.

**Fəhlələr Sülh Konfransında**

İngiltərə Hökuməti beynəlmiləl nöqteyi-nəzərindən zəhmət işləri ilə əlaqədar məsələlərə baxmaqdan ötrü fəhlə nümayəndələrindən 5 nəfərini Paris müşavirələrində iştirak etmək üçün dəvət etmişdir.

**Amerika ordusunun tərxisi**

Vaşinqtonda verilən binagüzarlığa görə hər ay 300 min Amerika əsgəri Amerikaya övdət edə [qayıda] bilər. Amerikanın nə miqdarda əsgər saxlamasını Vilson özü həll etməlidir. General Març daimi surətdə yarım milyon əsgər saxlanılması tərəfdarıdır.

*(Bolşevik acentəliyindən)*

Kornafondan xəbər verirlər ki, gələcək Almaniya 8 cümhuriyyətdən ibarət olacaqdır. Avstriyanın almanlarla məskun olan hissəsi də buraya daxil ediləcəkdir.

**Ərəbistan**

Berlindən teleqraf edirlər ki, Hicaz şeyxi nümayəndəsi Bəhri-Əhmərdən [Qırmızı dənizdən] Xəlici-Farsa [İran körfəzinə] qədər Ərəbistan hökumətlərinin bir hökumətə birləşdirilməsini və Türkiyə Hökuməti ixtiyarında deyil, Amerika təhtihakimiyyətində olmasını Sülh Konfransına təklif edir.

**Lloyd Corc bolşeviklər haqqında**

Berlindən teleqraf edirlər ki, "Forverts" qəzetəsinin yazdığına görə, Lloyd Corc Sülh Konfransında Rusiya işlərindən bəhs edib demişdir ki, Müttəfiq dövlətlərin geniş bir dairədə Rusiyaya hücumları imkan xaricindədir. Kiçik bir dairədə hücum etməklə iqtisadi təzyiqatın da heç bir əhəmiyyəti yoxdur. Lloyd Corc Bolşevik Hökuməti nümayəndələrinin Sülh Konfransına dəvət edilmələri ilə onların dediklərinə qulaq asmağı təklif etmişdir.

**İngiltərənin hərbi məqsədləri**

İtaliyada olan İngiltərə mümtaz qoşunlarının bir hissəsi Avstriyadakı Müttəfiqlərin istila qoşunları cərgəsinə daxil olacaqdır. Zaqafqaziyada olan ingilis qoşunları əğləb ehtimala görə bir neçə ay orada qalacaqlardır. Fələstində olan qoşunlar yarıyadək əksiləcəkdir. Hərgah, nəqliyyat vasitələri olarsa, Misirdəki qoşunlardan 4 firqəsi vətənlərinə qayıdacaqdırlar. Beynənnəhreyndə bir neçə vaxtadək bir qədər ingilis qoşunu saxlanacaqdır. Fəqət bu qoşunların həpsi hindular olacaq. İstilər düşənədək ingilis qoşunlarının əksərini İngiltərəyə qaytarmaq istəyirlər. Əlbəttə bunun üçün də nəqliyyat vasitələri şərtdir.

**Fransız ordusu**

Rəsmi surətdə elan edilir ki, Fransa istila ordusunu saxlamaq üçün Rəisi-vükəla Parisdə bir konfrans dəvət eyləmişdir. Bu konfransda ricali-hökumətdən [hökumət adamlarından] bir çoxları iştirak etmişlərdir. İclasda qayət mühüm məsələlər barəsində bəzi qərarlar verilmişdir və bu qərarlar bu həftə şurayi-vüzərada müzakirə ediləcəkdir. Hökumət istəyir ki, bilatəxir istila ordusunun məvacibini artırsın və onlara məzuniyyət versin. Böyləliklə 1919-cu sənə üçün istila ordusu saxlanacaq və sabiq cəbhələrin hamısında kafi qədər qoşun saxlanacaqdır.

**Vilson Reymsdə**

Tiflis - Amerika Rəisi-cümhuru Vilson öz əyalı ilə Reyms şəhərinə əzimət etmişlərdir [getmişlərdir]. Reymsin xarabalıqları qayət faciənak [faciəvi] mənzərə təşkil edir. Bunlar Reymsdə olan xəndəklərə baxmışlar. Orada 1917-ci sənə aprel ayında düşmüş 370 millimetrəlik qumbara varmış. Əgər patlasaymış, təmiri qeyri-qabil fəlakət törədəcəkmiş.

**SÜLH ƏTRAFINDA**

Tiflis (28 yanvar) - Sülh Konfransı cələsəsində [iclasında] Vilson Cəmiyyəti-Əqvam məsələsi haqqında irad etdiyi nitqini işbu sözlərlə xitama yetirmişdir: Biz buraya müharibəni udmaq üçün gəlməmişik. Biz ali məqsədimizə nail olmaq üçün gəlib də bu yolda çalışırız.

**Amerikada**

Paris - Vaşinqtondan xəbər verilir: Amerikada işsizlik olmamaq niyyəti ilə Amerikanın hərbi departamenti əmr vermişdir ki, saldatlar özlərinə iş bulmayanadək qoşun cərgəsindən çıxarılmasınlar.

Kortafon - Rusiya məsələsi diplomatların zehnini şaşırmışdır. Zənn edirlər ki, hərgah Rusiya nümayəndələri müəyyən vaxtadək yığışmasalar, o zaman onların

yığışması mart ayınadək təxirə salınacaqdır.

## BATUM TƏƏSSÜRATI

Batuma varid olduqda bir çox türk əsgəri və qitəatı [birlikləri] görürsən ki, arasıra ora-bura müsəlləh [silahlı] və qeyrimüsəlləh gedirlər. Lakin şəhərin və ətrafının əhəmm [mühüm] nöqtələrində İngiltərə qarovulunun görülməsi şəhadət edir ki, türklər bu gün Batumda müsafir olaraq yaşayırlar.

Zavallı türk nəfərlərinin [əsgərlərinin] halı artıq dərəcə müdhişdir. Bir tərəfdən vətənə getməyə yol yoxdur, məhəlli İngiltərə müəssisələri vapor [gəmi] vermirlər, İstanbuldan dəxi vapor gəlməyir. Digər tərəfdən isə ərzaq işləri ən fəci bir haldadır. Müntəzəm surətdə nəfərlərə iaşə verilməyir. Binəvalar buna görə aclıq və soyuğa giriftar olub əksəri xəstələnir, gündə 20-30 nəfəri tələf olur. Nə yerli müəssisələrdən və nə də Türkiyə Hökumətindən bunların halına bir diqqət yetirilməyir. Azərbaycan islamlarını erməni və bolşevik afətindən xilas edən türk nəfərini bu halda gördükdə insanın ürəyi od tutub yanır. Fənalıq burasındadır ki, burada olan türk komandanları dəxi nəfərlərin böylə halına qismən bietina qalırlar, qismən də heç bir çarə araya bilməyirlər. Bu hal arasında zavallı, başı bəlalı türk balaları tələf olub gedirlər. Allahtaala bu zülmü götürəcəkmi, ya hu?!

– Biz çəkdiyimizi yalnız Allah bilir –

Yavan əkməklə qarnını bir tövr doyuran türk nəfəri bir həmdərd gördükdə bu sözləri söyləyib ürək yandırıcı ahlar çəkir...

***

Burada hökumət türklər əlindən alınıb "9 nəfərin müşavirəsi" deyilən bir müəssisəyə verilmişdir. Həmin müəssisə Batumda yaşayan millətlər nümayəndələrindən ibarətdir. Rus, gürcü və ermənilərdən ikişər, islam, leh və yəhudilərdən isə birər nümayəndə vardır. Lakin bu hökumət, əhali arasında heç bir nüfuza malik deyildir. Burası təbiidir. 130 min nüfusu havi islamların səsləri, bütünü 10 mindən fəzlə olmayan əcnəbilər əlinə verildikdə əlbəttə ki, böylə yabançı hökumətin heç bir nüfuzu ola bilməz. Budur ki, şəhərdə və ətrafında türklər vaxtı əmnü asayiş hökmfərma olduğu halda, indi isə Batumda axşam saat 8-dən sonra küçələrə çıxmaq mümkün deyildir. Qətl və qarət hökmfərmadır. İnzibat, ingilislərin təhti-idarəsində məhəlli ənasirdən [yerli ünsürlərdən] mütəşəkkildir. Lakin milislərin əksəri nədənsə ermənilərdəndir.

Fövqdə [yuxarıda] zikr olunan "9 nəfərin müşavirəsi"nin rəisi rus olduğuna binaən [görə], burada yavaş-yavaş Nikolay zamanı iadə edilir. Şəhərdə və vilayətdə əski rus çinovnikləri məmuriyyət alırlar. Bu isə məhəlli əhalinin xoşuna getməyir və bu barədə ingilis komandası nəzdində məhəlli islam ənasiri tərəfindən mütəəddidən [dəfələrlə] etirazlar ittixaz olunur. Eşitdiyimizə görə, ingilis komandanı islam əhalisinin xahişlərinə tezliklə sərəncam olacaq deyə bəyan etmişdir.

Bunu demək icab edir ki, buradakı rus ənasiri kadetlərdən də sağ firqələrə mənsubdurlar. Burada rus və ingilis lisanında nəşr etdikləri "Naş kray" qəzetəsində məşhur "Novoye vremya" mühər-

rirlərindən Stolıpin (məşhur Stolıpinin bəradəri [qardaşı]) və Rennikov iştirak edirlər və "Vahid Rusiya" şüarına ən ciddi surətdə rövnəq verməkdədirlər. Bundan məlum olur ki, məhəlli rus ənasiri nə gunə [nə cür] məslək daşımaqdadırlar.

***

Digər tərəfdən, məhəlli islam əhalisi beynində [arasında] "İslam Gürcüstanı" şüarı atılmışdır. Bu şüar acaralılarla xristian gürcülərinin ittifaqından ibarət olub Acarıstan[ın] Gürcüstanla birləşməsi (lakin muxtariyyət şəraiti [şərti] ilə) fikri təqib olunur. Həmin şüarı aralığa atan və onun intişarına [yayılmasına] dair ciddi fəaliyyətdə bulunan zəvat [şəxslər] məşhur Abaşidze ailəsindən ibarətdir (Məhəmməd bəy, Aslan bəy və sairə). Bir qaç [bir neçə] gün bundan əqdəm [qabaq] bunların "İslam Gürcüstanı" nam [adlı] bir vasiteyi-nəşriyyatları mövqeyi-intişara qoyulmuşdur. Həmin qəzetədə təqib olunduğu əfkar [fikirlər], açığına meydana atılmışdır.

***

Şimdi məhəlli islam əhalisinin arasında cərəyan edən rəydən bir qədər bəhs edəlim. Burada əhalinin ən geniş sinif və təbəqələri arasında hökmfərma olan əfkar, təxlis edilmiş vilayatın [xilas edilmiş vilayətlərin] (yəni Batum, Qars və Ərdəhan) birlikdə bir siyasi vahid təşkil edilməsi lehindədir. Zatən Qarsda məhəlli hökumət hal-hazırda mövcuddur. Qars islamlarının xahişləri budur ki, onların daxili işlərinə müdaxilə edilməsin və təşkil etdikləri hökumət və məmuriyyətlər müntəzəm bir halda olduqlarına binaən, onların arasına yabançılardan məmur filan göndərilməsin. Bu fikrin intişarı üçün buradan dəxi Parisə, Sülh Konfransına islam əhalisindən xüsusi heyət gedir. Cərəyan edən əfkarın hangi birisi qalib gələr, bunu gələcək göstərər.

***

Azərbaycan və Gürcüstan heyətləri kanuni-saninin [yanvarın] 11-də buraya varid olub dün böyük ingilis paraxodu ilə İstanbula azim olası idilər.

*Batum, 17 kanuni-sani.*

**Azərbaycanlı heyəti-mürəxxəsəmizin Batumdan İstanbula əziməti**

Əxirən Batuma əzimət edən Azərbaycan heyəti-mürəxxəsəsi Batum məhəlli islamları tərəfindən mütəntən [təntənəli] bir surətdə istiqbal edilərək [qarşılanaraq] doktor Mahmud bəy Əfəndiyev cənablarının xanələrində şərəflərinə ziyafət verilmişdir. Ziyafətdə Acara üməra və vəkilləri iştirak etmişlərdir. Bədəhu, Acara vəkilləri ilə birlikdə heyəti-mürəxxəsə xüsusi bir məclis əqd edərək müdavileyi-əfkar [fikir alış-verişi, müzakirə] etmişlərdir. Azərbaycan heyəti-mürəxxəsəsi yanvarın 18-ində ingilis paraxodu ilə Batumdan İstanbula mütəvəccihən [doğru] yola çıxmışlardır. Heyəti-mürəxxəsəmiz Batumda gürcü heyəti-mürəxxəsəsi ilə birlikdə bəzi mühüm məsələlər haqqında məclislər edərək müdavileyi-əfkar etmişlər və birlikdə paraxoda girmişlərdir.

**Cənub-qərbi Mavərayi-Qafqaziya islamları haqqında**

Cənub-Qərbi Mavərayi-Qafqaziyanın bir milyona yaxın bulunan islamları hal-hazırda siyasi mövcudiyyətləri etibarı ilə bütün Qafqaziya hökumətlərinin nəzəri-diqqətlərini cəlb etməkdə və əfkari-ümu-

miyyəni işğal etməkdədir.

Türkiyə Hökuməti ilə Etilaf dövlətləri arasında əqd edilən mütarikə mövcibincə cənub-qərbi Mavərayi-Qafqazyanın böyük bir hissəsini təşkil edən Qars, Batum, Ərdəhan əyalətlərinin idareyi-mülkiyyəsi Türkiyənin öhdəsində qaldığı göstərilmişsə də, bilaxirə təbdil edilərək İngiltərə qüvayi-əsgəriyyəsinin təhti-səlahiyyətində bir idareyi-mülkiyyə təşkili əsası qaim olmuşdur. Bu səbəblə də ingilis general və komandanları Batumda Rus Şurayi-Millisi, Qarsda Erməni Komitəsi vasitəsilə biri rus, digəri də erməni olmaq üzrə müvəqqəti hökumətlər təşkil etmişlər və böyük bir islam əksəriyyətinin hüquq və miqdarına məbsutən mütənasib bir hesab verməmişlərdir.

Hal-hazırda bu şəraitdən başqa Axalsıx və Axalkələk uyezdləri kimi Batum və həvalisini [ətrafını] Gürcüstan əczasından [Gürcüstanın bir hissəsi] olaraq elan etmək və bir əmri-vaqe halına gətirmək istəyən gürcülər, digər tərəfdən Qars və həvalisini erməni məmalikinə bağlamaq istəyən ermənilər vardır. Fəqət gürcülərdən bütün cənub-qərbi Mavərayi-Qafqaziyanı tarixi Gürcüstan və Mesxet nami-məşhuru [məşhur adı] ilə iltihaqi-məmalik fikrini güdən bir sinif bulunduğu kimi, ermənilərdən də təzminat və tə'vizat və məlum siyasi ehtikari-hirs və iştəhası ilə buna bənzər müqabil bir əməl təqib edənlər də çoxdur. İştə bu əhval və şərait altında bulunan cənub-qərbi Mavərayi-Qafqaziya islamları üçün ciddi və düşüncəli bir vəziyyət və xətti-hərəkət təqib etmək icab edir.

Daha dün qəzetələrdə Gürcüstan Xariciyyə naziri Gegeçkorinin general Milnə, Ərdahanda general Xəlil bəy namində birinin Gürcüstan sərhədini təcavüz etdiyini söyləyərək şikayət etdiyini hər kəs oxudu. Bu xəbərin dərəceyi-səhhətini bilmədiyimiz kimi, bu şəkildə bir təcavüzün olduğundan da xəbərdar deyiliz. Deyəlim ki, bir az başqa dürlü bu xəbər doğrudur. Fəqət digər tərəfdən, məsələn vaxtilə türklərin çete komandanlıqlarında bulunmuş olan Abaşidze Sancaqbəyzadə Aslan bəyin Gürcüstanda topladığı bir taqım xristian gürcüləri və sairə ilə Gürcüstan sərhədindən Uzurketdən yuxarı, Acaraya doğru salqınlara başladığını inkarmı etməli? Hətta, o qədər də deyil. Miqdarı bir qaça çıxan abaşidzelər cənub-qərbi Mavərayi-Qafqaziya islamlarına qarşı gürcülərlə bərabər hərəkət etməkdə olduqları və heç bir məşru və qeyri-məşru hallardan geri durmadıqları bu gün ora həvalisi ilə az-çox əlaqədar olan kimsələr üçün aşkar bir keyfiyyətdir.

Süni və qeyri-təbii bir surətdə cənub-qərbi Mavərayi-Qafqaziya islamlarının müqəddərati-siyasiyyələrini həll etməyə çalışmaq, mövcudiyyəti-milliyyə və siyasiyyələrinə [siyasi və milli varlıqlarına] xatimə çəkmək deməkdir. Bu dürlü bir cərəyan isə gürcülərdən əsla mə'mul deyil ikən, məəttəəssüf [təəssüf ki], mümkün görünür.

Batum oblastı gürcülərcə Gürcüstanın əczasından olması şərtdir. Bunlar bu əsası hər zaman təkrar etmişlər. Fəqət heç bir zaman nə Batum oblastında bir əksəriyyət, nə də müdafiə etdikləri əsasda bir mətanət ibraz edəmməmişlərdir [göstərə bilməmişlər].

1914-cü ildən sonra acaralılar ilə gürcülər tarixi və coğrafi münasibət etibarı

ilə bir-birləri ilə anlaşıb eyi geçinirlər ikən, bundan istifadə edən – və demokrat sayılan – bəzi politikan gürcülər acaralılara təhəkküm etmək xəyal və xülyasını təqib edərək, bir çox xaric işlər yapdılar. Hətta o qədər ki, Məclisi-Müəssisan intixabatı [seçkiləri] əsnasında minlərcə insanın rəylərini süngü qüvvəti ilə almışlar və istədikləri siyahıya cəbrən [zorla] rəy verdirmək işlərini icra etmişlərdir. Bundan sonra bu münasibət, gürcülərlə acaralılar arasında elani-hərb etməyə qədər getmiş və iki qonşu və tarixən yekdigərlərinə bağlı millətlər arasında etilaf və dostluq çətinləşmiş idi. Şimdi isə yenidən qərib [yaxın] bir maziyə aid xəta təkərrür edir.

Siyasətən kəndi müqəddəratını cənub-qərbi Mavərayi-Qafqaziya islamları ilə ittihad və ittifaq etməkdə görən və bu cəhəti tərcih edən Batum oblastı islamlarını gürcülər nə üçün düşmənanə bir surətdə dinləyib tələqqi etməkdə olduqlarını biz bir dürlü anlayammayırız. Əgər gürcülər milli bir təhlükəni məlhuz görürlərsə, fəqət heyrət ki, bu təhlükə bir dürlü salim bir düşüncə ilə görünüb söylənməyir. Yalnız hissiyyat və çox etidalsızlıq[la] bərabər ortaya fırladılır.

Məsələn, gürcülər iddia edirlər ki, Batum oblastı Axalsıx, Qars və Ərdəhanla Gürcüstanın əczasındandır. Halbuki, bütün gürcü tarixlərini oxuyunuz, hətta iştə gürcücə yazılmış tarixlərdə belə bu saydığımız oblastların ayrı bir istiqlaliyyəti təmsil edərək idameyi-mövcudiyyət etdikləri və "Mesxet" nami-məşhuru ilə təarüf etdikləri görülür. Halbuki, hal-hazırda Qars, Ərdəhanla Axalsıx və Axalxələk islamları milliyyətcə gürcülərlə münasibətləri yoxdur və əsasən Batum oblastı bu gün də, yarın da kəndi xüsusiyyətləri daxilində Cənub-Qərbi Mavərayi-Qafqaziya ilə birləşmək fikrini müdafiə və mühafizədə israr edəcəkdir.

Bizə qalırsa bu məsələni, əgər gürcülər səmimi düşünürlərsə Azərbaycan və Gürcüstan arasında həll edib Cənub-Qərbi Mavərayi-Qafqaziyada siyasi bir islam mövcudiyyətini təminə daha ziyadə əhəmiyyət verməli və hər iki mücavir [qonşu] hökumət üçün bu ümumi və müştərək vəzifə olmalıdır. Yoxsa, əhalinin arzuyi-ümumisinə müğayir [ümumi arzusuna zidd] bir surətdə bir tərzi-həll və təsviyə bulub bu həvalini udmaq daimi bir asayişsizlik və ümum Qafqaziya hökumətləri üçün də həm bir qailə açılmış olar. Bu etibarla da biz Gürcüstanın mötəbər mətbuatından çıxacaq müsbət və ciddi bir mütaliəni oxumaq və bilmək istərdik. Ta ki, sui-təfəhhümlər izalə edilmiş olsun.

*Qaraağazadə Əhməd Həmdi*

## BAKI XƏBƏRLƏRİ

**"Türk gecəsi"**

Fevral ayının axırlarında "Müsavat" firqəsi tərəfindən böyük bir müsamirə tərtib ediləcəkdir. Bu müsamirədən hasil olan məbləğin yarısı zalımlar əli ilə yandırılıb xarabazara döndərilmiş olan "Cəmiyyəti-xeyriyyə" binasının təzədən təmir edilməsinə təxsis ediləcəkdir.

**Müsəlman fəhlələrinin konfransı**

Cümə günü yanvarın 31-ə təyin edilən müsəlman fəhlələri konfransı bəzi səbəblərə görə olmayacaqdır.

**İclas**

Cümə günü saat 4-də Keşlə kəndində “Müsavat” şöbəsinin ümumi iclası köhnə idarədə olacaqdır.

**İkinci uçastok ev komitəsində**

İkinci uçastok ev komitəsi xəbər verir ki, yanvarın 30-dan başlamış komitə tərəfindən Bolşoy Krepostnoy 47 nömrə, Voennıy 5 nömrə və Sadovıy küçədə 34 nömrəli bürolarda bu aşağıdakı qiymətlərlə əhaliyə azuqə şeyləri buraxılacaqdır:

Təmiz ağ buğda çörəyi- girvənkəsi 4 manat;

Qara çörək-2 manat 75 qəpik;

Düyü- 3 manat 30 qəpik;

Lobya-2 manat 90 qəpik;

Qeysi (ərik) - 6 manat;

Səbzə - 5 manat;

Soğan - 1 manat;

Çuğundur - 80 qəpik;

Paltar sabunu - 6 manat 25 qəpik.

Bunlardan əlavə ucuz qiymətlə cürbəcür birinci sort papiroslar satılacaqdır. O cümlədən:

“Simpatiya” - 4 manat 60 qəpik;

“Sudebnıy” - 4 manat 60 qəpik;

“Lora” - 3 manat 70 qəpik;

“İdeal” - 3 manat 15 qəpik.

Aşağı dərəcə papiroslardan:

“Yeqipetski”, “Simpatiya”, “Sudebnıy” - 3 manat 45 qəpik;

“Voennıy” - 2 manat 90 qəpik.

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsi qət etmişdir ki, Şollar su yolu qulluqçuları və fəhlələrinə verilən çörəyin miqdarı artırılsın. Hər adam başına gündə 3 girvənkə çörək veriləcəkdir. Fəhlələrin hər külfət adamı başına 2 girvənkə çörək buraxılacaqdır.

* Bələdiyyə İdarəsi qət etmişdir ki, qulluqdan çıxan Bələdiyyə İdarəsi xidmətçilərinə maaş verilsin. İşbu maaş müvəqqəti surətdə Bələdiyyə İdarəsi xidmətində olub xəstəlik və başqa bu kimi səbəblərdən naşi xidmətdən çıxanlara da şamil olacaqdır.

* Bələdiyyə İdarəsi qətnaməsi mövcibincə Bakıda su budkaları xidmətçiləri yeni qayda üzrə fevralın 1-dən etibarən həftədə bir gün tətil etməlidirlər. Müsəlman xidmətçilər cümə günləri, başqaları isə bazar günləri tətil etməlidirlər.

## ƏRZAQ İŞLƏRİ

Ərzaq Nəzarəti Şuşa uyezdni naçalnikinə yazır ki:

*“Malıbəyli kənd vəkilləri Mirmehdi Ağamirzadə və Əli Məşədi Əşrəf oğluna Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdi ki, Tağıyev fabrikasından 7 min arşın bez və 3 tay ağ alıb, məzkur kənd əhalisi arasında bezi 6 manat 10 qəpikdən, ağı 6 manat 60 qəpikdən təqsim etsinlər. Ərzaq Nəzarətinə verilən xəbərlərə görə, məzkur vəkillər aldıqları bezin və ağın hamısını kəndə gətirməmişlərdir. Buna görə, xahiş olunur bu işi təftiş edib Ərzaq Nəzarətinə xəbər verəsiniz.”*

Şuşa uyezdinin Birinci Uçastok pristavı Malıbəyli kəndxudasına yazmışdır ki, Şuşa uyezdni naçalnikinin yazdığına görə, Malıbəyli sakinləri Mirmehdi Ağamirzadə ilə Əli Məşədi Əşrəf oğlunu və 3 nəfər kəndin mötəbəranından 24 saat müddətində Şuşa uyezdni upravleniyası-

na göndəriniz. Şuşa uyezdni naçalniki bu işi təftiş etdikdən sonra, Ərzaq Nəzarətinə yazır ki, cəm etdiyim məlumata görə, Malıbəyli kəndi vəkilləri Mirmehdi Ağamirzadə və Əli Məşədi Əşrəf oğlu Tağıyev fabrikasından aldıqları bezin və ağın ancaq 1450 arşınını Malıbəyli kəndinə gətirmişlər. Qalanını isə aldıqları yerdə satmışlardır. Malıbəyli kəndinə gətirdikləri 1450 arşın bezin və ağın arşınını camaata 11 manatdan satmışlardır. Lakin təqdim edilən mirski priqovordan görünür ki, bütün ağ və bezin satışından hasil olan para Malıbəyli kəndi əhalisinə vüsul edilmişdir.

## BEZ FƏQƏRƏSİ

Petr Vasilyeviç Xovrostova verilib piltə qumaşı 4 put.

Hacıbala bəy Nağıbəyova verilib bez, bomazı, kətan; hərəsindən bir top və qətifə.

Hacı Zeynalabdin Tağıyevə verilib bez 5 400 arşın.

Oleşkeviçə verilib lankort, kətan və bez hərəsindən bir put.

Ticarət və Sənaye Vəzarəti qulluqçusu Kroşınskiyə verilib bez, bomazı, plis, lankort; hərəsindən bir top.

P. L. Barskiyə verilib bez və kətan; hərəsindən 2 top.

Bakı mahal məhkəməsi qulluqçularından ötrü buraxılıb kətan, bez; hərəsindən 9 top və qətifə 114 ədəd.

Həbibulla Nemət oğlu üçün verilib bez 2 500 arşın və qətifə 2 dujin.

Avstro-Venqriya əsirləri üçün buraxılıb bez 5 min arşın.

Aptek mağazası olan Abdulla Dadaşova buraxılıb tənzif 5 min arşın.

Ədliyyə Vəzarəti üçün buraxılıb kətan 11 top.

Məhəmməd Səid Qasımzadəyə hamam üçün buraxılıb bez 1 tay və qətifə 200 ədəd.

Nazirin xüsusi katibi Mehdi bəy Hacınskiyə buraxılıb kətan, bomazı, batist, madepulam, bez; hərəsindən 2 top və bir dujin qətifə.

Hacıbala Cəfərqulu oğlu üçün verilib bez 7 min 928 arşın, kətan 2 min arşın.

Məşədi Səttar Zeynalova buraxılıb bez bir top, bomazı, madepulam; hərəsindən bir top, qətifə bir dujin.

Ticarət və Sənaye Nəzarəti qulluqçusu Jubitskiyə verilib bez 140 arşın, kətan və bayka; hərəsindən 140 arşın.

Sentrodoma buraxılıb 20 tay.

Dağıstan mahalı üçün Məşədi Məhəmməd Qədirova buraxılıb 50 min arşın.

Doktor Larionovun xəstəxanasına buraxılıb bez bir tay.

Ərzaq Nəzarətinin quberniya vəkilinə buraxılıb bez, kətan, bomazı; hərəsindən 27 top və qətifə 13 dujin yarım.

İsa Məhəmmədova buraxılıb bez 2 min arşın.

Novxanı kəndi camaatı üçün buraxılıb kənd vəkili Kərbəlayi Əşrəf Baba oğluna bez 3 min arşın.

Dağıstan mahalı üçün Molla Baba Hacı Zəkəriyya oğluna bez 3 min arşın.

Corat kəndi camaatı üçün kənd camaatı vəkilləri Abbasəli Hacı Nəcəfəli oğlu və Həsən Hacı Xaliq oğluna buraxılıb bez 2 min 500 arşın.

Digah kəndi camaatı üçün camaat vəkili Məzahir Əbdüləzim oğluna buraxılıb 2 min 500 arşın.

## BƏYANİ-HƏQİQƏT

Möhtərəm "Azərbaycan" qəzetəsinin 91[-ci] nömrəsində Parlaman əzası Kiçikxanov imzası ilə "Ərzaq Nəzarəti canibialilərinə açıq məktub" sərlövhəsi ilə yazılmış məktubda: "Qəbulova verilmiş 50 min arşın bezin Zaqatalaya təxminən 20 mini çatmışdır" deyir və yenə həman qəzetənin 100-cü nömrəsində "Həqşünas" imzası ilə Ticarət və Sənaye Nəzarətindən Zaqatala İstehlak Cəmiyyətinə 50 min arşın bezin 23 mini Zaqatalaya vasil olub, mabaqisi [geri qalanı] isə vəkillər tərəfindən satılmışdır, deyə yazılmışdır.

Həqiqəti-hal bundan ibarətdir: Keçən 1918-ci sənənin oktyabr ayının axırlarında Zaqatala İstehlak Cəmiyyəti tərəfindən 3 nəfər müsəlman Molla Məhəmməd Abbasov, Maho Mavasi Nurməhəmməd oğlu, Ramazan Abdulla oğlu və bir nəfər rus Smilt namində, Bakıya vəkil göndərmişdilər və kəndiləri ilə bərabər bir çox ərzaq gətirmişdilər ki, burada başqa mallarla mübadilə etsinlər. Bu vəkillər Bakıya gəlib heç bir iş bacarmayacaqlarını düşünüb Zaqataladan kömək istəyirlər. Mən bu vaxt xüsusi işim üçün Bakıya gəlmiş idim. Zaqatala valisi müavini Musa bəy Şabanbəyov bu istehlak cəmiyyətinin vəkillərinə müavinətdə bulunmağımı xahiş etdiyinə görə, mən də həman vəkillər[in] gətirdikləri əşyaları Bakıda mövcud Prikaspiyski İstehlak Cəmiyyəti ilə başqa mallara mübadilə edib və həm də vəkillərə Ticarət və Sənaye Nəzarəti tərəfindən 50 min arşın bez almaqda müavinətdə bulunub, sonra vəkillərdən 15-16 gün qabaq çıxıb Zaqatalaya getmişəm. Bu yanvar ayının 12-ci yövmündə [günü] Zaqatala Parlaman məbuslarından Arslan bəy Qardaşov cənabları teleqrafla Zaqatala vilayət valisinə xəbər verir ki, istehlak cəmiyyətinə məxsus olan malları Smilt nam [adlı] rus satıb qaçıbdır. Bu teleqrafa binaən yanvar ayının 14-də Zaqatala camaatının xahişi ilə və valinin əmri ilə bu işin həqiqətini kəşf etmək üçün dübarə Bakıya yollandım. Buraya gələndən sonra, əldə etdiyim məlumata görə, yuxarıda əsamiləri [adları] zikr olunan vəkillər xəstə olduqlarından, 23 min arşın bez və 15 min arşın çit[i] Zaqatalaya göndərib, kəndiləri çıxıb gedirlər və yerdə qalan bezi, sabunu, şəkəri, çayı, qəhvəni və başqa xırda füruş [satılacaq] əşyaları, cəmisi 500 min manatlıq malı vəkilin birisi hesab olunan rus Smilt nama tapşırıb rica edirlər ki, Smilt nam həman mallarla bərabər Zaqatalaya gəlsin. Smilt nam da fürsətdən istifadə edərək əşyaların həpsini Bakıda satıb qaçır. Mərqumu [adı keçən şəxsi] və satılmış malları tapmaqdan ötrü təhərri [axtarış] polisəsi ilə bir yerdə lazımi tədbirlərdə bulunmuşam və bulunuram. İştə həqiqət bundan ibarətdir.

*Mustafa bəy Qəbulov*

## AZƏRBAYCANDA

**Xüsusi müxbirimizdən**

Astara mahalını nizama salmaq və rus əsakirinin [əsgərlərinin] zülm və sitəmkaranə hərəkatından müsəlman camaatını xilas etmək qəsdi ilə ingilis əsakiri Astaraya varid oldular. Onların vürudundan müsəlman camaatı çox şad oldular. Rus əsakirinin etdiyi zülm və sitəmi daha bunlar görməyəcəklər. Lənkə-

ran-Astara arasında olan kəndlər xarabazar mənzələsindədir [dərəcəsindədir]. Çox kəndləri yandırıb, qalanını qarət və talan etmişlər. Saldatın vahiməsindən Lənkərandan Astaraya gəlmək mümkün olmayırdı. Hər kəs[i] yolda görüb özünü soyub öldürürdülər. Quru ilə Lənkəran-Astara yolları kəsilmiş, bilmərrə gediş-gəliş yox idi.

Sülhi-ümuminin Parisdə olmağını və Müttəfiqlərin Rusiyaya gəlib iğtişaşı yatırdırmağını eşidib daha da zülm etməyə davam edirlər. Hürriyyət və azadlığı alan müsəlmanlara qarşı milli təəssüblərindən əl çəkməyib, Nikolaya canü dillə xidmət edən cahil xaxollar hürriyyətdən sonra özlərini bolşevik adlandırıb, az müddətdən sonra menşevik olub, müsəlmanların qanını sorurlar. Lənkəran və onun nahiyəsinin çəkdiyi qəzavü-qədər və görülməyən müsibətdən müsəlmanlar xilas olacaqlarmı?

**Zaqatalada**

Xüsusi müxbirimizdən:

Eməni-gürcü müharibəsi əsnasında Gürcüstanın Tilav və Siqnax qəzalarından bir xeyli erməni ailəsi qaçıb Zaqatala şəhərinə gəlmişlərdir. Hər nə qədər insaniyyət nöqteyi-nəzərindən qaçqınlara hörmət və müavinətdə bulunmaq lazım gəlirsə də, Zaqatalaya çağırılmayıb gələn bu kimi qonaqlardan ehtiraz etməmək [çəkinməmək, qorxmamaq] də mümkün deyildir. Zira Zaqatala şəhərində olan üç cift bir tək erməninin hilə və fitnələri qarşısında bütün Zaqatala vilayətinin islamları aciz qalmaqdadır. İnqilabın ilk aylarında "müsəlmanlar silahlanırlar, qalaya hücum edərək sizi və bizi qırmaq fik-rindədirlər" kimi rus saldatlarına yalan xəbərlər verməklə, az qaldı ki, əhali ilə saldatlar arasında qırğın əmələ gəlsin. Atışmada yaralanan da belə oldu.

Hətta, bu yayda Zaqatala ermənilərinin Tiflis ermənilərinə göndərdikləri xeyli məktublar tutulmuş idi. Məktubların cümləsi nəmmamçılıq [sözgəzdirənlik], fitnəçilik və daxili işlərimizi xəbər verməkdən ibarət idi. Təəccüb burasıdır ki, ermənilərin qaçqınlarını biz insaniyyət nöqteyi-nəzər[in]dən qəbul etdiyimiz bir vaxtda, bizim böylə mehmannəvazlığımız [qonaqpərvərliyimiz] müqabilində yenə xəyanətdə bulunmuşlardır. Bugünlərdə Zaqatala erməniləri gizlin bir məclis yaparaq Azərbaycanı tanımamaq, Bakıdakı Rus Milli Komitəsi ilə əlaqədə bulunmaq kimi qətnamə çıxarmaq istəmişlərdir. Şəhər polismeystri bu gizlin məclisi kəşf etmişsə də, vali cənabları böylə böyük bir işi qulaq ardı etmişdir.

İrəvan, Qarabağ kimi bir neçə əsrlərdən bəri öz yurdlarında dinc oturan islam əhalisi, daşnaklar tərəfindən qətliam, qadın-qızlarının irz və namusları hətk, malları talan edilən bir zamanda erməni qaçqınlarını açıq üzlə gətirib evlərində rahatlandırmaq Zaqatala islamlarının alicənablığına, daşnakların insaniyyətsizliyinə dəlil olmaqla bərabər, həm hifzi-sihhət [gigiyena], həm siyasət nöqteyi-nəzərlərindən bu qaçqınları gəldikləri yerlərinə qaytarmaq məhəlli [yerli] məmurların vəzifələri olsun gərək. Məncə, içlərində daşnaklar olmayan heç bir erməni camaatı təsəvvür olunmadığından, bu qaçqınların Zaqatalada qalması gələcəkdə böyük fitnələr törədəcəyini məhəlli məmurlarımız xatirlərindən çıxarmamalıdırlar.

*Həqşünas*

## GÜRCÜSTANDA

**Vəzirin intiharı**

Gürcüstan Dəmiryol naziri İvan Lordkipianidze üç gün bundan əvvəl zəhər içərək özünü öldürmüşdür. Bu intiharın səbəbi böylədir:

Gürcüstanın Dəmiryol Nəzarətində böyük xəyanət kəşf edilmişdir. Rəsmən xəyanətkar nazir özü imiş. Halbuki nazirin doğru bir şəxs olduğuna kimsə şübhə etməyirmiş. Nazir öz ətrafındakılara çox etibar etdiyindən, qulluqçular işi bir hala gətirmişlər ki, bütün təqsirlər mütəvəffa nazir üzərinə gəlirmiş. Bu iş təhqiq edilir. Bunlar arasında nazirin öz katibi də vardır. Mütəvəffa nazirin 39 sinni [yaşı] var imiş. Onun bu surət[d]ə ölməsi gərək hökumət əzalarına və gərək camaata çox artıq təsir eyləmişdir.

## ERMƏNİSTANDA

“Naşe vremya” qəzetəsindən: “Mişak” qəzetəsinin məlumatına görə, ingilis dəstəsi mayor və bir dəstə afiserlərlə Aleksandropola varid olmuşlardır. Həman qatarla Qarsa yeni təyin edilmiş olan ingilis general-qubernatoru da varid olmuşdur. Mövqifdə erməni nazirlərindən Xatisyan və şəhər qlavası Sarkisyan tərəfindən istiqbal edilmişdir. Bunların hər ikisi ingilisləri təbrik etmişlərdir. İngilislər özlərinə edilən ehtirama qarşı çox təşəkkür etmişlərdir. Sonra qonaqların şərəfinə ziyafət verilmişdir. Ziyafət zamanında ingilislər nitq irad edərək Zaqafqaziyada millətlərin qəhrəman bir surətdə yaşamalarının və vətəndə əmin və amanlıq bərpa etməyin lüzumunu göstərmişlərdir. O gündə qonaqlar Qarsa tərəf əzimət etmişlərdir.

* “Mişak” yazır: Qars mahalında olan türk və tatarlar ermənilərə silah və sairə verməyirlər. Yurduna qayıdan qaçqın hətta ermənilərə yerlərini vermək istəməyirlər.

* Son məlumata nəzərən, dəmiryolu Culfayadək Ermənistana verilmişdir. Culfa və Naxçıvan dairəsində olan müsəlmanlara gəldikdə, bunlar erməni təbəəliyini qəbul etmək istəyirlərmiş. (?)

**Ermənilər və Şəhər İttifaqı**

Dekabrın 20-si tarixi ilə Xatisov Gürcüstandakı Şəhərlər İttifaqı Səhiyyə şöbəsi rəisi Yaxşıyan nama [adına] göndərdiyi teleqramında deyir ki, öz yerlərinə qayıtmış olan erməni kəndçilərinin ehtiyacı çox böyükdür. Türklər əllərinə keçən şeyləri aparmışlardır. Şəhərlər İttifaqının malik olduğu əşyalarda ermənilərin də haqları olduğundan, Xatisov təvəqqe edir ki, bilatəxir İrəvana erməni qaçqınları nəfinə lazım gələn şeylər göndərilsin.

* Ermənistandan göndərilən erməni sülh nümayəndələrinin Parisə varid olduqları teleqrafən Tiflisə xəbər verilir.

**Ermənistan Hökuməti rəisi Kaçaznuninin nitqi**

Ermənistan Hökuməti rəisi Kaçaznuni dekabrın 31-də vaqe olan Nazirlər Şurasında böylə bir nitq söyləmişdir:

Bugündən bizim cavan cümhuriyyətimizin tarixində təzə bir səhifə başlanır.

Türk əsgərləri məmləkətimizdən çəkilib getdilər. Mən sizi təbrik edirəm. Bugündən bizim torpağımızda bir nəfər də türk əsgəri yoxdur.

Türklər boşaltdıqları yerlərin bilatəxir erməni əsgərləri tərəfindən zəbt edilməsi üçün hökumət vaxtlı-vaxtında təşəbbüsatda bulunmuşdur. Böylə ki, dekabrın 3-də bizim əsgərlərimiz Eçmiadzin, Sərdarabad mövqiflərini [stansiyalarını] və Marqarain körpüsünü zəbt etmişlərdir. Sabahı günü Uluxanlı mövqifini və saat 3-də Gümrünü zəbt etmişlərdir. Dekabrın 5-də Gümrü mövqifi zəbt olunub bu gün də bir dəstəmiz Qəmərlini keçdikdən sonra Yuva kəndini və digər dəstəmiz İğdırı zəbt etmişdir. Bu qərar üzrə dəmiryol xətti Kələgərandan Qəmərliyə qədər bizim əlimizdədir. Biz Gümrüdə türklərdən külli miqdarda mühimmati-hərbiyyə [hərbi sursat] almışıq. Hər bir hərəkat ixtilafsız və bir güllə atılmadan icra edilmişdir. İslam əhalisi hər yerdə bizim əsgərlərimizi təbriklə istiqbal etmişdir. O cümlədən erməni əsgərlərini dəvət etməkdən ötrü İğdırdan Marqaraya heyət göndərilmişdir. Heyət demişdir ki, İğdırda erməni əsgərlərinin vürudunu aramsız bir surətdə gözləyirlər.

## İZHARİ-TƏŞƏKKÜR

Qəzetəmizin yazıçılarından olan parlaman məbusu Əhməd Həmdi əfəndi Nuri paşa həzrətlərindən kəndilərinə bağışlanmış olan xəritələrdən böyük əndazəli [ölçülü] türkcə Zaqafqaziya xəritəsini idarəmizə hədiyyə etdilər. Bundan dolayı Əhməd Həmdi əfəndiyə idarə tərəfindən səmimanə təşəkkürlər izhar edilir.

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm! Xahiş olunur ki, mənim bu qaç [neçə] kəlməmi möhtərəm qəzetənizdə dərc edəsiniz:

*"Leyli və Məcnun" teatrosunda camaat teatrodan çıxıb evlərinə getdiyi zaman, teatronun qapısında polismeystr tərəfindən durdurulub təftiş olunurlar. Camaat bu işdən vahimələnib də bizim o biri oyunlarımıza kəm-etina olub zənn edirlər ki, bu təftiş hər dəfə olasıdır. Halbuki həman təftiş barəsində mən polis böyükləri ilə danışıb bildim ki, polis müfəttişləri həman gecə məhz Azərbaycan qoşunundan qaçan əsgərləri təftiş etmək qəsdi ilə bu işi icra edibdirlər. Yoxsa camaatla polisin işi yoxdur və bir də bu iş bir kərə oldu da, qurtardı. Ona görə camaatın bu barədə təşvişi bicadır [yersizdir].*

*Bu da əlavə olunur ki, müdiriyyət qərardadına görə, bundan sonra cümələr hökumət teatrosunda və seşənbə gecələri "Mikado" teatrosunda teatro tamaşalarımız göstərilib kəmali-qaidə [öz qaydası] ilə davam edəcəkdir.*

*Müdir: Zülfüqar bəy Hacıbəyli*

## TEATRO VƏ MUSİQİ

Bu gün cümə günü axşam saat 8-in yarısında Hökumət Teatrosunda (sabiq Mailov) Hacıbəyli Qardaşları Müdiriyyətinin artistləri tərəfindən əvvəlcədən elan edilən "Aşıq Qərib" operası əvəzinə "Arşın mal alan" operettası mövqeyi-tamaşaya qoyulacaqdır. "Aşıq Qərib" ope-

rasında “Sənəm” rolunu ifa edən Əhməd Ağdamlı xəstə olduğuna görə, müdiriyyət “Aşıq Qərib” operası əvəzinə “Arşın mal alan” operettasını mövqeyi-tamaşaya qoyacaqdır. Oyun şükuhlu [təntənəli] bir surətdə keçəcəkdir. Biletlər teatro kassasında satılmaqdadır. “Aşıq Qərib” operasına alınan biletlərlə bu teatroya gəlmək olar.

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Doktor İ. Q. Sibiroviç**

Daxili və uşaq xəstələrini qəbul edir səhər saat 9 - 12-yədək; axşam saat 4 - 6-yadək. Staro-Poliseyski küçədə nömrə 25 (Kolyubakinski küçəsininküncündə). Telefon nömrə 42-12.

*2658*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Elan**

Azərbaycan Cümhuriyyəti Ərzaq Nəzarəti idarəsi Azərbaycan daxilində yaşayan əhalinin və ətrafdan gələn bisavad adamların icazə və başqa işlər üçün Nəzarətə verəcəkləri ərizələri yazdırmaq üzündən çəkdikləri çətinliyi nəzərə alaraq, nazir həzrətlərinin əmri ilə idarənin aşağı qatında, pilləkənlərdən çıxan yerdə ərizə yazdırmağa xüsusi bir oda [otaq] təsis edilmişdir. Buna görə, bundan sonra nazir həzrətləri naminə və Ərzaq İdarəsinə ərizə verəcək kimsə həman odada ərizələrini pulsuz olaraq yazdıra bilərlər.

*Ərzaq Nəzarəti İdarəsi*

**Elan**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi həmin yanvar ayının 31-də cümə günü gündüz saat 12-də Bakı Şəhər İdarəsi (Dumasının) zalında Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin ümumi iclası təyin olunmuşdur. Müsəlmanlardan rica olunur ki, vəqti-müəyyəndə [təyin edilmiş vaxtda] iclasa təşrif gətirib üzv yazılsınlar və intixabda [seçkidə] iştirak eyləsinlər.

*Sədr: Mirzə Əsədullayev*
*T-12*

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə “Azərbaycan” qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*T-24*

***Müvəqqəti müdür:***
***Hacıbəyli Üzeyir bəy***

# QEYD VƏ ŞƏRHLƏR

**Ciddiyyət gərək!**

səh. 518. "M. Ə.": Bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 519. "…70 min nüfus…": qəzetdə "7 min nüfus" getmişdir.

**Bez fəqərəsi**

səh. 527. "lankort": pambıq parça növü.